AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

№ 28 (1428), 16 - 22 iyul 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.



## XXX Ümumdünya Yay Universiadası başa çatıb

### *Azərbaycan komandası Neapolda yeddi medal qazanıb*

İyulun 3-də İtaliyanın Neapol şəhərində keçirilən XXX Ümumdünya Yay Universiadası başa çatıb. 12 gün davam edən yarışda 222 dəst medal sahibini tapıb. 18 idman növündə mübarizə aparan 112 ölkədən 68-i universiadada mükafatlara layiq görülüb. Onlardan 43-ü çempionluq sevinci də yaşayıb.

Azərbaycan yığma komandasının üzvləri yeddi medal əldə ediblər. İdmançılarımız iki qızıl, üç gümüş və iki bürünc medala sahib olublar.

Millimiz bu göstərici ilə universiadanın medal siyahısında 18-ci pillədə qərarlaşıb.

Universiadada Yaponiya, Rusiya və Çin ilk üçlükdə qərarlaşıb.

*(ardı 2-ci səhifədə)*

## XV Avropa Gənclər Olimpiya Festivalına 5 gün qalır





## *Nazim Babayev İsveçdə...*

Nazim Babayev İsveçin Qalve şəhərində 23 yaşadək atletlər arasında keçirilən Avropa çempionatında üç təkanla tullanmada gümüş medal qazanıb.

İdmançımız yarışda 17.03 metr nəticə ilə ikinci olub. Çempionatda qızıl medalı Türkiyə atleti Necati Ər qazanıb - (17.37 m).

Xatırladaq ki, N.Babayev iyulun 10-da İtaliyanın Neapol şəhərində keçirilən XXX Ümumdünya Yay Universiadada üç təkanla tullanma yarışının finalında 16,89 metr nəticə ilə qalib olub.

## *...Sabrina Zralova isə Serbiyada gümüş medala layiq görülüb*

Serbiyanın Kralyevo şəhərində keçirilən atletika üzrə yeniyetmələr arasında Balkan çempionatına yekun vurulub. İdmançılarımızdan Sabrina Zralova üç təkanla tullanma yarışında 12,59 metr nəticə ilə gümüş medal qazanıb. Digər idmançılarımız Çingiz İsrafilov, Lamiyə Vəliyeva, Fəxriyyə Tağızadə və Teymur Salahzadənin çıxışları uğursuz olub.

Atletlərimiz yarışda məşqçi Nazim İsrafilovun rəhbərliyi altında qüvvələrini sınayıblar.



## AİBA-nın prezidenti vəzifəsini tərk edib


Gafur Rahimov

Beynəlxalq Həvəskar Boks Assosiasiyasının (AİBA) rəhbəri Qafur Rəhimov prezident səlahiyyətlərindən birdəfəlik əl çəkib.

68 yaşlı özbəkistanlı funksioner qərarını qurumun rəsmi saytı vasitəsi ilə açıqlayıb.

Bu posta ötən il noyabrın 2-də seçilmiş Q.Rəhimov bu ilin martında prezident səlahiyyətlərini müvəqqəti olaraq təhvil verib. Lakin AİBA-nın Nizamnaməsinə əsasən, o, bir il müddətində vəzifəsinə geri dönə bilərdi. Qurumun İcraiyyə Komitəsi iyunun 27-də müvafiq bəndi sənəddən çıxarmaqla, özbəkistanlı funksioneri geri dönmək hüququndan məhrum edib. Nəhayət, dünən Qafur Rəhimov postunu birdəfəlik tərk etdiyini bildirib.

Qeyd edək ki, Q.Rəhimovun AİBA-nın prezidenti seçilməsi Beynəlxalq Olimpiya Komitəsini qane etmirdi. Ona görə də boksun Yay Olimpiya Oyunlarının proqramından çıxarılması məsələsi gündəmdə idi.

## *Anons*

*"Avropa Oyunlarının qızıl medalı gələcək karyeramda stimul olacaq"*

Səh. 3

İdman kompleksləri idmanın kütləviliyində mühüm rol oynayır

Səh. 6

## *Olimpizm*



### *Tokio-2020-yə 3 milyondan artıq bilet satılıb*

Beynəlxalq Olimpiya Komitəsi bilet satışı üzrə birinci mərhələnin nəticələrinə görə, Tokio-2020 Yay Olimpiadasına 3, 22 milyon bilet satışını təmin edib.

BOK-un rəsmi saytının yaydığı məlumatda bildirilir ki, biletlər yaponiyalı azarkeşlər tərəfindən satın alınıb. Avqust ayında yenidən satışlar olacaq. Payızda isə bilet satışının ikinci mərhələsinə start veriləcək.

Tokio Olimpiya stadionunun tikintisi ilə bağlı işlər 90 faiz yerinə yetirilib və stadionun noyabr ayında açılışı planlaşdırılır. Stadionda olimpaiadanın açılış və bağlanış mərasimləri, futbol və digər yarışların təşkili nəzərdə tutulur.

Xatırladaq ki, Tokio-2020 Yay Olimpiadası 24 iyul-9 avqust tarixlərində keçiriləcək.

### *Dünya çempionu Olimpiya Oyunlarında çıxış etmək istəyir*

Fransa yığmasının hücumçusu Kilyan Mbappe Tokio-2020 Olimpiadasında iştirak etmək arzusunda olduğunu bildirib.

Bu barədə 20 yaşlı oyunçu Yaponiyaya səfəri zamanı etiraf edib: "Fransa yığması ilə hələ Avropa çempionatında oynayacağıq. Tokioda



təşkil ediləcək XXXII Yay Olimpiya Oyunlarında da iştirak etmək istəyirəm".

Xatırladaq ki, Fransanın gənclərdən ibarət millisi Avropa çempionatının play-off mərhələsinə çıxaraq olimpiadaya lisenziya qazanıb. Komandanın heyətinə 23 yaşa qədər oyunçular daxil ediləcək.

**ÇL** (təsnifat)

## "Qarabağ" - "Partizani"

(Azərbaycan) (Albaniya)

*17 iyul. Azərbaycan. "Dalğa Arena". Saat 21:00.*

**Avropa Liqası** (təsnifat)

## "Neftçi" - "Speranta"

(Azərbaycan) ( Moldova)

*18 iyul. Azərbaycan. "Baksel Arena". Saat 21:00.*

## "Universitata" - "Səbail"

(Rumıniya) (Azərbaycan)

*18 iyul. Rumıniya. "Stadionul İon Oblemenko". Saat 20:00.*

# XXX Ümumdünya Yay Universiadası başa çatıb

## *Azərbaycan komandası Neapolda yeddi medal qazanıb*

*(əvvəli 1-ci səhifədə)*

### Atletika

İyulun 10-da Azərbaycan atleti Nazim Babayev İtaliyanın Neapol şəhərində keçirilən XXX Ümumdünya Yay Universiadasının qızıl medalını qazanıb. Avropa çempionumuz üç təkanla tullanma yarışının finalında 16,89 metr nəticə ilə




Universiadanın qalibi olub. Bununla da o, universiadalarda ikinci çempionluğunu rəsmiləşdirib. Xatırladaq ki, idmançımız təsnifat mərhələsində 16,36 metr nəticə ilə finala yüksəlmişdi. Qeyd edək ki, atletika yarışlarında digər idmançımız Zəkiyyə Həsənova 100 metr məsafəyə qaçış növündə təsnifat mərhələsində 11 saniyəlik nəticə ilə dördüncü yeri tutaraq mübarizəni dayandırıb. Atletlərimiz universiadaya məşqçi Ziyad Xəlfəyevin rəhbərliyi ilə qatılıblar.

### Bədii gimnastika

Bədii gimnastımız Zöhrə Ağamirova keçirilən XXX Ümumdünya Yay Universiadasında iki gümüş mükafata layiq görülüb. O, əvvəlcə çoxnövçülük yarışlarında mübarizə apararaq, bütün alətlərdə öz proqramını icra edib. Çıxışlarının ümumi nəticəsinə əsasən, Zöhrə 75,425 xal toplayıb və bununla da 32 idmançı arasında ikinci yerdə qərarlaşıb. Rusiyalı gimnast Yekaterina Seleznyova



83,600 xalla qızıl, ABŞ təmsilçisi Laura Yihan Zenq 72,600 xalla bürünc medala layiq görülüblər.

Zöhrə Ağamirova daha bir gümüş medalı gürzlərlə hərəkətin icrasında əldə edib. 20.200 xal qazanan xanım gimnastımız fəxri kürsünün ikinci pilləsində qərarlaşıb.

Bununla da, Azərbaycanın gimnastika komandası universiadanı qadın idman gimnastımız Marina Nekrasovanın 1 qızıl və bədii gimnastımız Zöhrə Ağamirovanın 2 gümüş medalı ilə başa vurub.

### Taekvondo

XXX Ümumdünya Yay Universiadasında ölkəmizi təmsil edən taekvondoçulardan Patimat Abakarova bürünc medala sahib olub. 53 kiloqram çə-



ki dərəcəsində mübarizə aparan idmançımız Çin (18:0), Rusiya (11:5) və almaniyalı (5:2) rəqiblərini məğlub edərək, yarımfinala vəsiqəni təmin edib. Növbəti görüşdə koreyalı rəqibinə 1:0 hesabı ilə məğlub olan Patimat yarışları bürünc medalla başa çatdırıb.

Qeyd edək ki, Universiadanın əvvəlki günlərində Marina Nekrasova (idman gimnastikası) qızıl, Hidayət Heydərov (cüdo, 73 kq) gümüş, cüdo üzrə Azərbaycan millisi isə bürünc medal qazanıblar.

---



# Dünya Çimərlik Oyunlarında Azərbaycanı 7 idmançı təmsil edəcək

Qətərin paytaxtı Dohada Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) Dünya Çimərlik Oyunlarında iştirak edəcək ölkələrin nümayəndə heyətlərinin rəhbərləri üçün seminar keçirilib.

Seminarda ölkəmizi oyunlarda təmsil edəcək nümayəndə heyətinin rəhbəri, MOK-un idman idarəsinin rəisi Həsənağa Rzayev iştirak edib.

Seminar çərçivəsində iştirakçı MOK-ların nümayəndələrinə yarış obyektlərinin hazırlığı, yaşayış, nəqliyyat, akkreditasiya, qidalanma, turnir cədvəli və digər mövzularla bağlı məlumat verilib. İştirakçılar həmçinin yarış obyektləri ilə də tanış olublar.

Qeyd edək ki, Dünya Çimərlik Oyunlarında Azərbaycanın 7 idmançısı - Kseniya Levkovska, Rostislav Pevtsov (akvatrilon), Pənah İlyaslı, İbrahim Yusubov, Kənan Əliyev, Oyan Nazariani (güləş) və Roman Heydərov (karate kata) vəsiqə qazanıblar.

---

# AVRO-2020-nin biletlərinə rekord sayda sifariş qəbul olundu




Futbol üzrə 2020-ci il Avropa çempionatı üçün satışa çıxarılmış biletlərin ilkin fazası rekord müəyyənləşdirib.

UEFA 19,3 milyon bilet üçün ərizə alıb. Halbuki, AVRO-2020-nin analoji dövrü üçün 11 milyon sifariş qəbul edilmişdi.

12 iyul 2020-ci ildə İngiltərənin paytaxtı Londondakı "Uembli" stadionunda təşkil olunacaq qarşılaşma üçün 1,9 milyon bilet sifariş edilib. Bu, stadionun tutumundan 22 dəfə çoxdur və AVRO-2020-nin 51 matçı arasında ən yüksək tələbatlısıdır.

İtaliyanın paytaxtı Romadakı "Olimpiko" stadionunda 12 iyun 2020-ci ildə keçiriləcək açılış oyununa isə 540 min və ya stadionun tutumundan 8 dəfə çox ərizə gəlib. Ümumilikdə, sifarişlər 213 ölkədən daxil olub.

Bu ayın sonlarında atılacaq püşk nəticəsində təsdiqlənən ərizələrin sahibləri müəyyənləşəcək. Bu barədə azarkeşlərə avqustun ortalarınadək məlumat veriləcək. Ərizələri qalib sayılan azarkeşlər bildirişləri elektron poçt vasitəsilə qəbul etdikdən 10 gün sonra biletləri almalıdırlar.

Bilet üçün növbəti ərizə imkanı dekabrın sonlarında - final mərhələsinin püşkatmasından sonra olacaq. Komandaları final mərhələsinə yüksəlmiş azarkeşlər biletləri öz milli assosiasiyaları vasitəsilə əldə edə bilərlər. Ərizə vermək üçün milli assosiasiyaların müəyyənləşdirdiyi meyarlara cavab vermək lazımdır.

Qeyd edək ki, AVRO-2020-nin seçmə mərhələsinin 3, 1/4 final mərhələsinin isə 1 oyunu Bakı Olimpiya Stadionunda keçiriləcək.

---

## *Cüdo yığmamız Budapeştdə bürünc medalla kifayətləndi*

Macarıstanın paytaxtı Budapeştdə cüdo üzrə Qran-Pri yarışı keçirilib. Qran-Pri turnirində dünyanın 82 ölkəsindən 548 cüdoçu mübarizə aparıb. Yarışda 12 (7 kişi, 5 qadın) cüdoçu ilə təmsil olunan komandamız 1 bürünc medala sahib çıxıb. Yeganə medalı komandamıza Telman Vəliyev (73 kq) qazandırıb. İdmançımız Portuqaliya, Macarıstan, İsveç və Perudan olan rəqiblərinə qalib gələrək yarımfinala çıxıb. Bu mərhələdə Rusiya təmsilçisinə uduzan Telman Vəliyev üçüncü yer uğrunda görüşdə yaponiyalı Masaşi Ebinuma üzərində qələbə qazanaraq bürünc medala sahib olub.



---

# Batumi-2019 beynəlxalq turnirində yüksək nəticə

Gürcüstanın Batumi şəhərində Azərbaycan boksçularının da iştirak etdiyi yeniyetmə və kadetlər arasında Batumi-2019 beynəlxalq turniri keçirilib.

Yarışlarda Azərbaycanı Əməkdar məşqçi Rəhim Allahverdiyevin rəhbərliyi ilə 1 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya




Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin və "Qızıl Əlcək" idman klubunun yetirmələri təmsil ediblər.

Turnirdə boksçularımız 14 qızıl, 3 gümüş, 4 bürünc medal qazanaraq komanda hesabında fəxri kürsünün ilk pilləsində qərarlaşıblar və Batumi-2019 kubokuna layiq görülüblər. Yarışda öz çəkisindən ağır, 44 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələn boksçumuz Amin Məmmədzadə (36 kiloqram) qızıl medalla yanaşı, həm də turnirin ən texnikalı boksçusu adını qazanıb.

---




# "Sarı zolaq" xəbərdarlığı

İyulun 20-28-də Bakıda keçiriləcək XV Avropa Gənclər Olimpiya Festivalı ilə əlaqədar müəyyən olunan marşrut üzrə əsas yol şəbəkəsində "sarı zolaq"ın çəkilişi işləri davam etdirilir.

Bu işlərin iyulun 18-dək tam yekunlaşdırılması nəzərdə tutulub. "Sarı zolaq"a icazəsiz daxil olan sürücüləri 40 manat cərimə gözləyir. Cərimə protokollarının hansı tarixdən etibarən yazılacağı yol polisi tərəfindən ictmaiyyətə açıqlanacaq.

---

# AFFA-dan tender elanı

AFFA Tovuz rayonunda, "Turan-Tovuz" klubunun nəzdində Futbol Akademiyası, təlim-məşq bazası və stadion üçün alınacaq avadanlıq ilə əlaqədar tender elan edib.

Tenderdə iştirak etmək istəyənlər təklifləri və yuxarıda qeyd olunan "Şirkətlərin uyğunluğu üzrə sorğu vərəq"ini 5 avqust 2019-cu il, saat 18:00-a qədər tender@affa.az elektron ünvanına göndərə bilərlər.

---

### Bolqarıstandan sonra Rusiya

Voleybolçu qadınlardan ibarət Azərbaycan milli komandasının təlim-məşq toplanışının növbəti mərhələsi üçün Rusiyaya yollanıb.

Covanni Kapraranın baş məşqçi olduğu yığma Bolqarıstan toplanışında iki dəfə yerli komanda ilə yoxlama oyunu keçirib. Bunların birincisində 1:3 (23-25, 19-25, 25-21, 25-27) hesabı ilə uduzan Azərbaycan millisi növbətisində eyni hesabla qalib gəlib - 3:1 (25-23, 25-14, 17-25, 25-21).

Rusiyada da yerli yığma ilə bir neçə yoxlama oyunu keçirəcək komanda daha sonra Türkiyəyə yollanacaq.

Qeyd edək ki, toplanış 1 - 3 avqustda Braziliyada keçiriləcək 2020-ci il Tokio Yay Olimpiya Oyunlarına lisenziya xarakterli turnirə hazırlıq xarakteri daşıyır. Azərbaycan millisi D qrupunda təşkilatçı ölkə ilə yanaşı, Kamerun və Dominikan Respublikası ilə birgə yer alıb. Komanda Braziliyaya iyulun 24-də Türkiyədən yollanacaq.

### Millimiz Göygöldə hazırlıq keçir

Yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandası Göygöldə növbəti təlim-məşq toplanışına start verib.

Göygöl Olimpiya İdman Kompleksində hazırlıq prosesinə start verən millimiz toplanışda geniş heyətlə iştirak edir. Baş məşqçi Şaban Donat, böyük məşqçi Rövşən Bayramov, məşqçilər Emin Əhmədov və Turac Hüseynli, eləcə də gənclərdən ibarət yığmamızın böyük məşqçisi Nurəddin Rəcəbovun rəhbərliyi ilə 30-a yaxın güləşçi Göygöl hazırlığına cəlb olunub. Heyətdə böyüklərlə yanaşı, bir neçə gənc güləşçi də yer alıb. Komandamız iyulun 31-dək davam edəcək təlim-məşq toplanışında əsasən fiziki hazırlıq üzərində çalışacaq.

Təlim-məşq toplanışı sentyabrın 14-dən 22-dək Qazaxıstanın paytaxtı Nur-Sultanda keçiriləcək dünya çempionatına hazırlıq xarakteri daşıyır.

---

# Hemiltondan 80-ci çempionluq

Formula 1 üzrə Böyük Britaniya Qran-Prisi yekunlaşıb. "Silverstoun" avtodromunda keçirilən yarışı "Mercedes"in pilotu Lüis Hemilton qazanıb. Karyerasının 80-ci çempionluğuna qovuşan britaniyalı pilot, həmçinin doğma məkanda 6-cı qalibiyyətini əldə edib. İkinci pilləni Hemiltonun komanda yoldaşı Valtteri Bottas, üçüncü pilləni isə "Ferrari"dən Şarl Lekler tutub.



# II AVROPA OYUNLARI



— Çempionlar —

***Minskdə keçirilən II Avropa Oyunlarında Azərbaycan yığma komandası 28 medal qazandı. Atletlərimizdən 5-i qızıl, 10-u gümüş, 13-ü isə bürünc medala layiq görülüblər. Komandamız bu nəticə ilə medal qazanan ölkələr arasında 10-cu pillədə yer alıb. İkinci Avropa Oyunlarında qazanılan medallardan 5-i (1 qızıl, 3 gümüş, 1 bürünc) karateçilərimizin də payına düşüb. Buyaxınlarda Minsk-2019 çərçivəsində keçirilən karate yarışlarında ölkəmizə qızıl medal qazandıran Asiman Qurbanlı (+84 kq) ilə görüşdük. Müsahibimiz ona ünvanlanan sualları səmimi cavablandırdı.***





## “Avropa Oyunlarının qızıl medalı gələcək karyeramda stimul olacaq”

Məlumat üçün bildirək ki, 1992-ci il avqustun 10-da Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olan Asimanın karate ilə ilk tanışlığı 4 yaşında olub. Atası Fətulla Qurbanovdan karatenin incəliklərini öyrənən Asiman 9 yaşında peşəkar idmanla məşğul olmağa başlayıb.

Xatırladaq ki, Oyunların kumite yarışlarında A qrupunda mübarizə aparan karateçimiz qrup mərhələsində birinci oyunda hollandiyalı Darnel Ladi Tirona 2:0 hesabı ilə qalib gəlib. Qrupda ikinci görüşdə almaniyalı Conatan Horn ilə xalsız heç-heçə edən Asiman sonuncu görüşdə türkiyəli Alparslan Yunusoğlunu minimal hesabla məğlub edib. O, yarımfinalda gürcüstanlı Qoqita Arkaniyaya qalib gələrək adını finala yazdırıb. Asiman finalda xorvatiyalı Andcela Kvesiçə qalib gələrək ikinci Avropa Oyunlarının qalibi adını qazanıb. Qeyd edək ki, Asiman Qurbanlı 2016-cı ildə Karate 1 Premyer Liqa və bu il Karate 1 A Seriyası turnirlərinin qalibi olub.

***- Asiman, istərdik, əvvəlcə oxucularımıza idmana gəlişin barədə məlumat verəsən.***

- Karateyə olan həvəsim ailədə yaranıb. Belə ki, atam vaxtilə karate ilə məşğul olub. Elə bu məqsədlə, 9 yaşımdan etibarən peşəkar şəkildə karate ilə məşğul olmağa başladım. Məşqləri Seymur Xudaverdiyevin yanında davam etdirdim. Buna qədər atamın yanında karate ilə məşğul olurdum. Etiraf edim ki, atam məni karate bölməsinə dünya, Avropa çempionu olmağa, şöhrətə və evə pul gətirməyə görə yazdırmamışdı. O, istəyirdi ki, özümə görə gücüm olsun. Bir sözlə, özümü qoruya bilim. Yəni hər şey bu məqsədə xidmət edirdi. Hətta uşaq vaxtı atam beynəlxalq yarışa getməyimə icazə vermirdi. Mənə görə bir valideyn kimi narahat idi. Lakin respublika çempionu olduqdan sonra atama Dünya kuboku yarışına gedəcəyim barədə müjdə verdim. O, bu xəbərə görə təəccübləndi. Həmin yarışdan qızıl medalla qayıdanda artıq başa düşdü ki, mən bu idman növü ilə həvəskar deyil, peşəkar şəkildə məşğul oluram. O, bundan sonra məşqlərimə də daha ciddi yanaşmağa başladı.

***- İdmana gələndə özünə əsas kumir kimi seçmişdin?***

- Düzünü desəm, uşaq vaxtı Rafael Ağayevi tanımırdım. Onda hələ yaşım az idi. Ona görə də ilk uşaqlıq kumirim filmlərdən tanıdığım Bryüs Li olub. Lakin sonralar Rafael Ağayevi tanıdım. Öz həmyerlimi və canlı əfsanəni özümə kumir seçdim. Rafael bütün karateçilərin bəyəndiyi bir idmançıdır. Heç vaxt düşünməzdim ki, gün gələr, kumirim olan idmançı ilə bir komandada məşq edərəm. Təbii ki, bu mənim üçün çox xoşdur. Onunla birgə məşq etmək, onun ətrafında olmaq bizim üçün əlavə bir stimuldur. Rafaelin məşqlərini, çəkdiyi əziyyətləri gördükdə özümüzü daha məsuliyyətli hiss edirik.

### “Rəqiblərimi aldatdım”

***- Minskdə keçirilən Avropa Oyunlarına hazırlıq necə başlamışdı?***

- Avropa Oyunlarına hazırlıq dekabr ayından başlamışdı. Daha dəqiq desəm, dekabrdakı hazırlıq sırf Avropa Oyunlarına görə olmasa da, ümumi hazırlıq sayılırdı. Həm Azərbaycanda, həm də xarici ölkələrdə təşkil olunan təlim-məşq toplanışlarında iştirak etdik. Lakin bir müddət dizimdən aldığım zədəyə görə məşqlərə ara verdim. Zədəm sağaldıqdan sonra yenidən məşqlərə başladım.

***- Qələbələr istək və arzulardan yaranır?***

- Avropa Oyunlarında çıxış etdiyim çəki dərəcəsində ən güclü idmançılar yer almışdılar. Adətən əksər yarışlarda rəqiblər arasında zəif idmançılar da olur. Amma Minskdə bu, belə deyildi. Etiraf edim ki, çıxış etdiyim çəkidə titul baxımından ən zəif olan idmançı elə mən idim. Bütün rəqiblərim dünya, Avropa çempionları və beynəlxalq yarışların mükafatçıları idilər. Amma bu o demək deyildi ki, mən özümü onlardan zəif hesab edirdim.

İkinci Avropa Oyunlarının qalibi olmaq üçün çox istəkli idim. Düşünürdüm ki, əgər çempion olmaq istəyirəmsə, bütün qüvvə və bacarığımı səfərbər etməliyəm. Məni çempion edən də, elə bu istək idi. Hər günə çempion olmaq arzusu ilə başlayırdım.

***- Püşkdən sonra da çempion olacağına ümid edirdin?***

- Yarışa lisenziya qazananda bilirdim ki, vəziyyətim heç də yaxşı olmayacaq. Çıxış etdiyim qrupda mübarizənin ağır olduğunu əvvəlcədən təxmin etmişdim. Mənim onsuz da yer aldığım qrup heç vaxt zəif olmayıb. Çünki çıxış etdiyim çəki dərəcəsində rəqiblərimin hamısı çox güclüdür. Yarışdan əvvəl düşünürdüm ki, iki idmançı var ki, onlarla qarşılaşsam, rahatlıqla mərhələ keçə bilərəm. Lakin bəxtimdən həmin idmançılar mənimlə eyni qrupa düşmədilər. Fikirləşirdim ki, qrupdan çıxsam, finala da vəsiqə qazana bilərəm. Belə də oldu. Tanrı mənə güc verdi, həm qrupdan birinci çıxdım, həm də yarışın qalibi adını qazandım.



Çıxışlarıma gəldikdə isə, yarışda fərqli üslubda döyüşdüm. Normalda ayaq zərbələrinə üstünlük verirdim. Lakin bu yarışda bir dəfə də olsun, ayaq zərbəsindən istifadə etmədim. Rəqiblərimdən yalnız əl zərbələri ilə xal aldım. Əvvəlki yarışlarda döyüşlərim məhsuldar olurdu. Həm özüm çox zərbə vururdum, həm də rəqibdən çox zərbə alırdım. Lakin bu dəfə ehtiyatlı döyüşə üstünlük verdim və bütün qələbələrimi minimal xalla qazandım. Ümumi yarış ərzində rəqib idmançılardan cəmi bir xal buraxdım. Çalışdım ki, işimi şansa saxlamayım. Bütün döyüşlərimdə planlı şəkildə mübarizə apardım. Başqa üslubda döyüşərək, bununla bir növ rəqiblərimi aldatdım.

### “Özümə sual verirdim ki, görəsən bu yuxudur?”

***- Fəxri kürsüdə hansı hissləri keçirirdin?***

- Qrupdan çıxanda və finala yüksələndə ailəmlə danışdım. Çünki həyatda mənim ən böyük dayağım onlardır. Çempion olduqdan sonra keçirdiyim hissləri onlarla bölüşdüm. Gözümü yumub, açıb özümə sual verirdim ki, görəsən bu yuxudur? Himnimiz səslənən zaman yarışlara hazırlığım, döyüşlərim və arzularım gözümün qabağında canlanırdı. Həmin hissləri heç bir sözlə təsəvvür edə bilmirəm. Hər bir idmançıya bu anları arzu edirəm.

***- Rəqiblərin qələbənə eyni cür yanaşdılar?***

- Qrupda üz-üzə gəldiyim almaniyalı idmançı ilə 9 dəfə qarşılaşmışam. Bu qarşılaşmaların üçündə mən, üçündə isə o qalib gəlib. Digər üç görüşümüz isə heç-heçə başa çatıb. Onunla Minskdəki görüşümüz də heç-heçə başa çatdı və o məni qucaqlayaraq dedi ki, bu dəfə də hesab bərabər oldu. Türkiyəli rəqibim isə mənə uduzduğuna görə çox əsəbiləşmişdi. Həmin idmançıya xal lazım idi. Bunun üçün mütləq məni udmalı idi. Lakin əksinə oldu, mən ona qalib gəldim. Düzdür, normalda onunla münasibətimiz yaxşıdır, amma bu yarışdır. Yarışda heç bir rəqibə güzəştə getmək olmaz. Hollandiyalı idmançı ilə isə o qədər də münasibətim yoxdur. Lakin Minsk-2019-un bürünc medalını qazanan gürcüstanlı idmançı ilə çox yaxşı münasibətim var. Onu yarımfinalda üstələsəm də, finalda qalib olduğuma görə çox sevinirdi. Bizim yarışdan əlavə onunla dostluğumuz var. Ümumiyyətlə, idmançılarla aramızda nə qədər gərgin mübarizə olsa da, yarışdan sonra bir-birimizlə dostluq edirik.

***- İkinci Avropa Oyunlarını həm çempion, həm də bayraqdar kimi başa vurdun. Bayraqdar olacağını düşünürdün?***

- İkinci Avropa Oyunlarının qalibi olmaq kimi bir hissi Tanrı mənə nəsib etdi. Ardınca, komandamızın bayraqdarı olmaq təklifini aldım. Bu hisslər tam fərqlidir. Azərbaycan komandasının bayraqdarı olmaqdan qürur duyuram.

***- Yarışın təşkilatçılıq səviyyəsindən razı qaldın?***

- Bakıda təşkil olunan birinci Avropa Oyunlarında iştirak etmədiyim üçün müqayisə etməkdə çətinlik çəkirəm. Heç kəsə sirr deyil ki, Bakıda təşkil olunan Avropa Oyunları yüksək səviyyədə təşki olunmuşdu. Amma Minsk də, bu yarışların öhdəsindən layiqincə gəldi. Hətta deyərdim ki, Minsk-2019-un karate yarışları çox yüksək səviyyədə təşkil olunmuşdu. Vətəndən kənarda olmağımıza baxmayaraq, yarışda güclü azarkeş dəstəyini hiss etdik. Belarusda yaşayan həmvətənlərimiz də bizi dəstəkləyirdilər. Onların hər birinə minnətdarlığımı bildirirəm.



***- Avropa Oyunlarının medalı sənin üçün nəyi ifadə edir?***

- Avropa Oyunları mənim məqsədimin yalnız 30-40 faizidir. Bu, böyük qələbələrə gedən yolda bir təkandır. İndi başa düşürəm ki, bunu bacardımsa, dünya, Avropa və Olimpiya Oyunlarının da qalibi ola bilərəm. Sadəcə, bunun üçün daha çox çalışmaq lazımdır. Mənə bu günə qədər çox şans verilmədiyinə görə özümü tam göstərə bilmirdim. İnanıram ki, Avropa Oyunlarının qızıl medalı gələcək karyeramda stimul olacaq. Bundan sonrakı məqsədim Tokio Olimpiadasına lisenziya qazanmaq və ölkəmizə Olimpiya medalını gətirməkdir. Bu çox çətin yoldur. İnanıram ki, məqsədimə nail ola biləcəyəm.

***- Tokio Olimpiadasına lisenziya qazanmaq şansını necə dəyərləndirirsən?***

- Olimpiya Oyunlarına lisenziya yarışları çoxdan başlayıb. Hazırda Olimpiya reytinqində 15-ci pillədəyəm. Bu çox böyük fərqdir. Qarşıdakı yarışlarda qalib gələrək, bu fərqi aradan qaldırmalıyam. Bunun üçün bizi qarşıda bir sıra mötəbər turnirlər gözləyir. Bu yarışlarda ilk üçlüyə düşərək, Tokio-2020-yə lisenziya xalı qazanmağa çalışacağam. Artıq məşqlərə başlamışam. İnanıram ki, Tokio-2020-ə lisenziya qazanaraq, ölkəmizi Olimpiadada təmsil edəcəyəm.

***- Asiman Qurbanlı üçün ən yadda qalan döyüş hansı olub?***

- (düşünür) Yadda qalan döyüşlərim çox olub. IV İslam Həmrəyliyi Oyunlarında bürünc medal uğrunda görüşüm yadıma düşdü. Görüşün başa çatmasına 12 saniyə qalmışdı və iki xal fərqi ilə gerdə idim. Rəqibim çox güclü idmançı idi. Bilmirdim nə edim ki, hesabı öz xeyrimə dəyişim. Görüşün son saniyələrində heç kimin gözləmədiyi bir anda vəziyyət dəyişdi. Rəqibimə 3 xallıq zərbə endirdim və hakimlər qələbəni mənə verdilər. Bu, karyeramın ən unudulmaz qələbələrindən biri idi.

*Azər Əlizadə*





# Sərbəst güləşçilər Türkiyədən medallarla qayıtdılar

***İstanbulda tanınmış türk pəhləvanı, Olimpiya çempionu Yaşar Doğunun xatirəsinə həsr olunan sərbəst və qadın güləşi üzrə beynəlxalq turnirə yekun vurulub.***

İlk yarış günündə sərbəst güləş üzrə yığmamızın 3 üzvü xalça üzərinə çıxıb. Georgi Edişeraşvili gərgin keçən görüşdə italiyalı rəqibinə uduzub. Yığmamızın üzvü iyulun 12-də təsəlliverici görüşdə güləşmək hüququ qazanıb. Türkiyəli güləşçi xalçaya çıxmadığı üçün Edişeraşvili bürünc medal görüşünə vəsiqə qazanıb. Bolqarıstan idmançısını üstələyən Georgi 3-cü yeri tutub. 70 kq-da iki təmsilçimiz mübarizə aparıb. İlk mərhələdə Qazaxıstan idmançısına qalib gələn Murtuzəli Müslimov 1/4 finalda komanda yoldaşı Gitinoməhəmməd Hacıyevi üstələyərək yarımfinala yüksəlib. Hindistanlı rəqibi də məğlub edən M.Müslimov adını finala yazdırıb. G.Hacıyev iyulun 12-də təsəlliverici görüşdən də məğlub ayrılıb. Əvəzində Murtuzəli finalda cəmi 1 dəqiqə ərzində bolqarıstanlı rəqibini məğlub edərək xatirə turnirinin qalibi olub.

Yarışın ikinci günündə daha iki sərbəst güləşçimiz mübarizəyə başlayıb. Əli Rəhimzadə ilk görüşdə tunisli rəqibinə rahat qalib gəlsə də, ABŞ-dan olan həmkarına müqavimət göstərə bilməyib. Abubakr Abakarov isə debütdə ABŞ-ın digər təmsilçisinə məğlub olub. Ancaq hər iki güləşçimizin rəqibi finala yüksəldiyi üçün yığmamızın üzvləri iyulun 13-də mübarizəni bürünc medal uğrunda davam etdirsələr də, yekunda 5-ci yerlə kifayətləniblər.

Turnirin üçüncü günündə Azərbaycan yığmasının son beş üzvü mübarizəyə qoşulub. Pəhləvanlarımızdan Mahal Novruzov ilk görüşündə Türkiyə təmsilçisinə, digər idmançımız Murad Süleymanov isə komanda yoldaşı Aleksandr Qostiyevə (-86 kq) uduzub. Sonra türkiyəli güləşçiyə qalib gələn A.Qostiyev yarımfinala yüksəlib. Slovakiya nümayəndəsini də məğlub edən Aleksandr finala vəsiqə qazanıb. Finalda Hindistandan olan rəqibinə qalib gələn güləşçimiz qızıl medala sahib çıxıb.



Mübarizəyə dörddəbir finaldan başlayan Şamil Zubairov (-92 kq) da Türkiyə idmançısına qalib gələrək adını yarımfinala yazdırıb. Ancaq növbəti rəqibi olan ABŞ pəhləvanı gənc güləşçimiz üçün keçilməz olub. Beləliklə, Ş.Zubairov bürünc medalla kifayətlənib.

# Avropa İdman Şəhərləri və Paytaxtları Federasiyasının baş katibi ilə görüş keçirilib

Ölkəmizdə səfərdə olan Avropa İdman Şəhərləri və Paytaxtları Federasiyasının (ACES Europe) baş katibi Huqo Alonso Gənclər və İdman Nazirliyində ölkəmizin gənclər və idman idarələrinin rəhbərləri ilə görüşüb.



Rəhbərlik etdiyi qurumun fəaliyyətindən danışan H.Alonso federasiyanın Avropa Parlamentinin idman siyasətini həyata keçirən təşkilat olduğunu vurğulayıb. O, qurumun həyata keçirdiyi layihə çərçivəsində hər il bir neçə şəhərin “Avropanın İdman Şəhəri”, bir şəhərin isə “Avropanın İdman Paytaxtı” tituluna layiq görüldüyünü bildirərək deyib: “Bu tədbirin təşkilində əsas məqsəd Azərbaycanın müxtəlif şəhər və rayonlarının “ACES Europe”un həyata keçirdiyi layihəyə qoşulub fəal iştirakına nail olmaqdır. Təşkilat 20 ilə yaxındır ki, Avropada fəaliyyət göstərir və indiyədək 500-ə yaxın şəhər müxtəlif titullara layiq görülüb. Bu ildən “Dünya İdman Paytaxtı” titulu təsis edilib. İlk titula Abu-Dabi şəhəri layiq görülüb”.

Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov Gəncənin 2019-cu il “Avropa İdman Şəhəri” tituluna layiq görüldüyünü bildirib. O qeyd edib ki, layihə çərçivəsində şəhərin gəncləri arasında sağlam həyat tərzinin təbliğinin daha da genişləndirilməsi, idmanın kütləviliyinin artırılması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib. Həmçinin şəhərin idman infrastrukturunun daha da təkmilləşdirilməsi istiqamətində işlər görülür, parklarda idman qurğuları quraşdırılır.

Sonra “ACES Europe”un fəaliyyəti, təltif edilən şəhərlərlə bağlı videoçarx nümayiş olunub.

Qeyd edək ki, “Avropanın İdman Şəhəri” tutuluna MDB ölkələri arasında ilk dəfə məhz Gəncə şəhəri layiq görülüb.

# Stolüstü tennisçilərimiz Avropa çempionatında ikinci oldular

Çexiyanın Ostrava şəhərində stolüstü tennis üzrə keçirilən gənclərin Avropa çempionatının komanda oyunları başa çatıb.

Ölkəmizi qitə çempionatında təmsil edən oğlanlardan ibarət yığmamız Belçika komandasına qalib gələrək finala yüksəlib. Final oyununda Rusiya yığmasına məğlub olan komandamız ikinci yerlə kifayətlənib.

* * *

Stolüstü tennis üzrə 2007-ci il təvəllüdlü və daha azyaşlı oğlan və qızlar arasında keçirilən Azərbaycan birinciliyi başa çatıb.

Şəxsi və komanda xarakteri daşıyan birincilikdə Azərbaycanın şəhər və rayonlarının yığma komandaları iştirak ediblər. Yekun nəticələrə görə, qızlardan ibarət komanda “Sumqayıt-2” yığması birinci yeri tutub. İkinci yerə “Sumqayıt-1”, üçüncü yerə isə “Sumqayıt-3” və “Şabran” komandaları layiq görülüblər. Oğlanlardan ibarət”Sumqayıt-1” komandası birinci yerdə qərarlaşıb. İkinci yerə “Bakı-1”, üçüncü yerə isə “Sumqayıt-2” və “Şabran” komandaları layiq görülüblər.



Qızların şəxsi yarışlarında Mərziyyə Nurmətova qızıl, Aylin Əsgərova gümüş, Arzu Aslanova və Nigar Mahmudova bürünc medal qazanıblar. Oğlanların şəxsi oyunlarında isə ilk pillədə Hüseyn Eylazov qərarlaşıb. Adil Əhmədzadə ikinci, Tahir Qubadov, Rüstəm Hacılı üçüncü yerləri tutublar.



# Şamaxının güləş ənənəsini yaşadan “Şirvan”

***Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şamaxıda bütün sosial sahələr, o cümlədən idman sürətlə inkişaf edir. İdman infrastrukturunun yenilənməsi bu sahəyə olan marağı daha da artırır. Şamaxı hər zaman pəhləvanlar yurdu kimi tanınıb. Rayonun güləş ustaları hələ keçmiş SSRİ dövründə müxtəlif turnirlərdə öz məharətlərini uğurla nümayiş etdirərək ad-san qazanıblar. Rayonun pəhləvanları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil ediblər. Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi, sərbəst güləş üzrə dünya çempionu Oleq Krapivin məhz Şamaxı güləş məktəbinin yetirməsidir.***

Burada doğulub boya-başa çatan həmyerlimiz hazırda Ukraynanın paytaxtı Kiyev şəhərində yaşasa da, doğma yurdu ilə müntəzəm əlaqə saxlayır. Veteran idmançı Ukrayna Azərbaycanlıları Konqresinin (UAK) Kiyev şəhər təşkilatının sədridir. O, Azərbaycan-Ukrayna mədəni əlaqələrinin inkişafında və möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Məhz Krapivinin təşəbbüsü ilə hər il dekabr ayında - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Kiyevdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirilir. Bu turnirə Ukraynanın özündə maraq olduqca böyükdür. Təsadüfi deyil ki, hər dəfə yarışın açılış mərasimində bu ölkənin hökumət və dövlət nümayəndələri iştirak edirlər. Respublikamızın yeniyetmə pəhləvanları bu yarışda müntəzəm iştirak edir, ugurlu nəticələr qazanırlar. Oleq Krapivin doğma Şamaxıda güləşin inkişafı, uşaq, yeniyetmə və gənclərin fiziki sağlamlığının qorunması üçün əlindən gələni əsirgəmir. Dünya çempionu vaxtilə məşq etdiyi bölmədə şəxsi vəsaiti hesabına “Şirvan” idman klubunu yaratması onun güləşə nə qədər bağlı olduğunu əyani şəkildə göstərir. İdman ocağının inşasına 2003-cü ildə başlanılıb, bir ildən sonra idmançıların istifadəsinə verilib. Güləşə həvəs göstərənlərin artması 2017-ci ildə klubun binasının tam şəkildə yenidən qurularaq genişləndirilməsinə zəmin yaradıb.

“Şirvan” güləş klubunun rəhbəri Namiq Hüseynov bizimlə söhbətində bildirdi ki, burada hazırda 100-dən çox uşaq, yeniyetmə və gənc güləşin sirlərini öyrənir. “Azərbaycanda idmana göstərilən dövlət qayğısı sağlam nəslin yetişməsinə hesablanıb. İndi respublikamızın bütün bölgələrində ən müasir tələblərə cavab verən idman ocaqları fəaliyyət göstərir. Rəhbərlik etdiyim “Şirvan”idman klubu da dövrün tələbləri səviyyəsində inşa edilib. Burada fiziki hazırlıq üçün trenajorlar, sauna, duşxana, namaz otağı və köməkçi otaqlar fəaliyyət göstərir. Həftənin bütün günləri iki növbəli məşqlər keçirilir. Kluba axının kifayət qədər olacağını bilirdik. Çünki Şamaxıda güləşə hər zaman böyük maraq göstərilib. Azərbaycan güləşinin tanınmış simalarından bir çoxu bizim rayonun yetirməsidir. Onların arasında dünya çempionu Oleq Krapivini xüsusi qeyd etmək istərdim. Həmyerlimiz bir idman xadimi kimi məşhurdur. O, respublikamızda güləşin inkişafında əvəzsiz xidmətləri olan bir mütəxəssisdir. “Şirvan “klubunu Oleq Krapivin şəxsi vəsaiti hesabına yaradıb. Gənc nəslin fiziki sağlamlığının qorunması , güləşin sirlərinə dərindən yiyələnmək üçün burada hərtərəfli şərait mövcuddur. Klubumuzda Azərbaycan pəhləvanlıq sənətinin, eləcə də Şamaxı güləş məktəbinin şanlı tarixini yaşatmağa çalışırıq. Bu işdə Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi, güləş üzrə Avropa çempionu, Dünya kubokunun sahibi Rafiq Hacıyevin təcrübəsindən yararlanırıq. Rafiq müəllim tez-tez Şamaxıya gələrək məşqlərimizlə maraqlanır, tövsiyələrini verir. Bacarıqlı mütəxəssisdən çox şey öyrənirik. Bu sözləri Vüqar Abdullayev barədə də demək olar. Vüqar müəllim yüksək təşkilati bacarığa malik insandır. Klubumuzun bütün işlərində yaxından iştirak edir”,- deyə Namiq müəllim qeyd etdi.

Şamaxıda Oleq Krapivinin şərəfinə respublika turnirinin keçirilməsi ənənəyə çevrilib. Kütləvi xarakter alan yarış artıq beynəlxalq səviyyədə təşkil olunur. Namiq Hüseynov turnirin, adətən, oktyabr ayında keçirildiyini dedi: “Oleq Krapivinin şərəfinə indiyədək yeniyetmə sərbəst güləşçilər arasında 6 yarış təşkil etmişik. Oktyabr ayında növbəti yarış nəzərdə tutulub. Hər dəfə iştirakçıların sayı artır. Hiss olunur ki, turnirə maraq böyükdür. Ötən il Oleq Krapivinin şərəfinə keçirilən altıncı açıq Respublika turnirində 2004-2005-ci illər təvəllüdlü yeniyetmələr mübarizə apardı. Yarışda Azərbaycan, Rusiya, Ukrayna, Gürcüstan, İran, Qazaxıstan və Qırğızıstandan ümumilikdə 300-ə yaxın güləşçi gücünü sınadı. Bu cür yarışlar istedadlı yeniyetmə pəhləvanların üzə çıxarılmasında önəmli rol oynayır. Həm də uşaqlar təcrübə qazanırlar. Onların ustalıq səviyyəsinin artmasında belə yarışlar əvəzsiz rol oynayır. Əminəm ki, klubumuzun idmançıları da gələcəkdə beynəlxalq yarışlarda öz sözünü deyəcəklər. Dediyim kimi, uğur qazanmaq üçün “Şirvan” idman klubunda kifayət qədər şərait var”.

Şamaxı güləş məktəbi həmişə öndə olub. Qədim idman növünün inkişafında, kütləvilik qazanmasında bu rayonun pəhləvanlarının danılmaz əməyi olub. İnanırıq ki, rayon gənclərinin ən sevimli məskəninə çevrilmiş “Şirvan” klubu rayonun tarixi ənənəsinin yaşadılmasına öz töhfəsini verəcəkdir.



***Hümmət Cavadov,***
***sərbəst güləş üzrə***
***SSRİ idman ustası***

# Azərbaycanda satılan idman qidasında dopinq aşkarlanıb

***Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) idman qidaları və bioloji fəal əlavələri qəbul edən iki idmançının nümunələrində qadağan olunmuş anabolik maddələri aşkarlayıb. Həmin qidaların tərkibində metilstenbolon, metandienon, mestanolon, metiltestosteron, 1-androstenedion, 1-testosteron, oksimesteron maddələri müəyyən edilib.***

İdmançılardan Azər Əhmədov (atletika) 18 aylıq, Rüfət İsmayılov (cüdo) isə 12 aylıq diskvalifikasiyaya məruz qalıblar. Antidopinq qaydalarına əsasən, ilkin olaraq hər iki idmançıya dörd illik diskvalifikasiya tətbiq edilib. Lakin AMADA-nın təşəbbüsü ilə keçirilən təhqiqat nəticəsində cəza müddəti azaldılıb.

Beləliklə, Rüfət İsmayılovun ötən il mayın 22-dən başlayan diskvalifikasiya müddəti bu il mayın 22-də başa çatıb. Azər Əhmədovun isə 2017-ci il noyabr 23-dən başlayan cəza müddəti bu il mayın 23-də bitib.

AMADA-nın araşdırması zamanı məlum olub ki, nümunələrdə dopinqin aşkar edilməsi idmançılar tərəfindən qida əlavəsinin istifadəsi ilə bağlıdır. İdmançıların izahatına əsasən, onlar “Mega Sport” şirkətinin istehsalı olan “AMINO Hardcore” əlavələrini qəbul ediblər. İdmançılardan götürülmüş qida əlavəsi qutularının üzərində onun tərkibinə qadağan edilmiş maddələrin daxil olması haqqında məlumatın olmamasını nəzərə alaraq, AMADA həmin qida əlavələrini Köln şəhərində yerləşən və Ümumdünya Antidopinq Agentliyi (ÜADA) tərəfindən akkreditasiya edilmiş laboratoriyaya göndərib. Antidopinq qaydalarına əsasən, idman qidaları və bioloji fəal əlavələr yalnız qeydiyyata alınmış antidopinq qayda pozuntusunun araşdırması zamanı müayinə üçün laboratoriyaya göndərilir.




Müayinə nəticəsində həmin qida əlavələrinin metilstenbolon, metandienon, mestanolon, metiltestosteron, 1-androstenedion, 1-testosteron, oksimesteron maddələri ilə kontaminasiya olunduğu müəyyən edilib.

Bununla əlaqədar AMADA xəbərdarlıq edir ki, idman qidaları və bioloji fəal əlavələrin idmançılar tərəfindən istifadəsi onlarda dopinqin aşkarlanmasına gətirib çıxara bilər. Həmçinin idman qidası və bioloji fəal əlavələrinin istehsalçısının öz məhsulunun tərkibi haqqında natamam və ya yanlış məlumat göstərməsi mümkündür. Amma bu, qida əlavəsini qəbul edən idmançıları dopinq testi nəticəsinin müsbət halında məsuliyyətdən azad etmir.

# “Yay məktəbi 2019” layihəsi uğurla davam edir



Yelkənli İdman Federasiyasının reallaşdırdığı “Optimist” sinfi üzrə “Yay məktəbi 2019” layihəsində iştirak edən 7-14 yaşlı uşaqlar yelkənqurma, yelkənli qayıqlardan istifadə etmə, qayıqları sürmə qaydalarını mənimsəyərək açıq dənizdə müxtəlif hava şəraitində təhlükəsiz şəkildə yelkənli qayığı manevrlərlə idarəetmə bacarığına yiyələniblər. Beynəlxalq təcrübəli “Optimist” sinfi üzrə baş məşqçi Seyhun Yıldız, “Laser” sinfi üzrə məşqçi Tuğçe Subaşının səyləri nəticəsində qısa müddət ərzində uşaqlara yelkənli idmanı sevdirmək və onların yelkənli qayıqları açıq dənizdə rahat şəkildə idarə etməsinə nail olunub.

Yelkənli idman növünə kütləvi maraq və istəyi təmin etmək məqsədilə təşkil olunan yay məktəbinin reallaşdırılması Azərbaycanda bu sahədə peşəkar idmançıların yetişdirilməsinə, yelkənli idmanına sevginin aşılanmasına xidmət edir.

Aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman maddi texniki bazanı gücləndirmək, Respublikasının Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində “Optimist” sinfi üzrə 7-14 yaş uşaqlar, “Laser” sinfi üzrə isə 14 yaşdan yuxarı yeniyetmələri bu idman növünə cəlb etmək olub.

Təlim məşqlərin keçirilməsində Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda “Optimist” və “Laser” sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən iki baş məşqçi fəaliyyət göstərir. Məhz xaricdən dəvət edilən idman menecerləri, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə komandaların məşqləri keçirilir.

# “Olimpiya ümidləri” “Sərhədçi”də yarışacaqlar

Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun anadan olmasının 50 illik yubileyi münasibətilə sentyabrın 27-29-da




“Olimpiya ümidləri” adlı ənənəvi beynəlxalq karate turniri keçiriləcək. Yarışda 6-13 yaşlı uşaqlar mübarizə aparacaqlar. Gənclər və İdman Nazirliyinin, Azərbaycan Karate-Do Federasiyaları Assosiasiyasının və Azərbaycan Milli Karate Federasiyasının birgə təşkil edəcəyi beynəlxalq xatirə turniri “Sərhədçi” İdman Olimpiya Mərkəzində baş tutacaq. Sentyabrın 21-də turnirin təntənəli açılış mərasimi olacaq. Xatirə turnirinə beynəlxalq hakimlər də dəvət ediləcəklər.

Yarışda 10-dan artıq ölkədən idmançıların iştirakı gözlənilir.

“Olimpiya ümidləri” turnirindən bir gün əvvəl Azərbaycanın tanınmış karateçilərinin rəhbərliyi ilə seminarın təşkili nəzərdə tutulub.

# Respublika Şahmat Olimpiadasında 18 şahmatçı maksimum xal toplayıb

Qax Olimpiya İdman Kompleksində 16 yaşadək yeniyetmələr arasında keçirilən Respublika Şahmat Olimpiadasında dördüncü tura yekun vurulub. A qrupunda dörd turdan maksimum xal yığan 11 şahmatçı liderlər qrupunda yer alıb. Əlavə göstəricilərə görə, Mirseyidəli Talıbzadə ilk pillədə qərarlaşıb. B qrupunda isə 7 şahmatçı bütün turları qələbə ilə başa vurub. Bu qrupda isə əlavə göstəricilər üzrə Xanım İsmayılova liderdir.

Turnirin baş hakimi, beynəlxalq dərəcəli hakim Qüdrət İsmayılovdur. Olimpiada İsveçrə sistemi üzrə 11 turdan ibarət olaraq FİDE qaydalarına əsasən keçirilir və şəxsi-komanda xarakteri daşıyır.

Respublikamızın 58 şəhər və rayonunu təmsil edən 551 şahmatçının mübarizə apardığı şahmat olimpiadası iyulun 21-dək davam edəcək.



# “Judo Club 2012”də karateçilərin kumite üzrə seminarı keçirilib

Buyaxınlarda Azərbaycanda səfərdə olan Küveytin karate üzrə yığma komandasının keçmiş baş məşqçisi Elnur İbrahim “Judo Club 2012”nin qonağı olub. Hazırda Küveytin “Al Shabab” klubunda baş məşqçi vəzifəsində çalışan həmyerlimiz “Judo Club 2012”nin dəvəti ilə klubun yeniyetmə və gənc karateçiləri üçün seminar təşkil edib. bir həftəlik seminarda təcrübəli mütəxəssis karate üzrə öz bilik və bacarıqlarını idmançılarla bölüşüb. Tələbələrə öz ustalığını nümayiş etdirən mütəxəssis müxtəlif fəndlərin yerinə yetirilməsi barədə nəzəri və praktik tövsiyələrini verib, həmçinin idmançılarımızın suallarını cavablandırıb.



Seminar idmançılar üçün faydalı olmaqla yanaşı, yeniyetmə və gənc karateçilərin yaddaşında unudulmaz hadisə kimi qalıb.

Tədbirin sonunda “Judo Club 2012”nin karate bölməsinin rəhbəri Gündüz Mahmudov və baş məşqçisi Namiq Pirverdiyev dəvəti qəbul edib gəldiyi üçün klubun rəhbərliyi adından Elnur İbrahimə minnətdarlığını bildirib.

Seminarın sonunda klubun qonağı olan Elnur İbrahim “Olimpiya dünyası” qəzetinə fikirlərini bildirib. Müasir standartlara cavab verən klubda məşq etmək üçün hər cür şəraitin yaradıldığını qeyd edən təcrübəli mütəxəssis klubun yetirmələrinin gələcəkdə böyük uğurlara nail olacağına əminliyini ifadə edib: “Uzun müddətdən sonra yenidən doğma vətənimdə olmaq gözəl hissdir. Bakıda olduğum müddətdə “Judo Club 2012”nin dəvəti ilə klubun qonağı oldum və öz təcrübəmi gənc idmançılarla bölüşdüm. Klubun çox böyük potensiala malik karateçiləri var. Onlar öz nəticələri ilə bunu təsdiq edirlər. Klubun yetirmələrindən Fərid Ağayev, Kənan Babayev, Fidan Dadaşova, Nuri Əliyev və Abbas Dadaşov təcrübələri və yüksək hazırlıq səviyyələri ilə məni sevindirdilər. Yeniyetmə karateçilər də məşq zamanı özlərini yaxşı tərəfdən göstərməyə çalışırdılar. Sevindirici haldır ki, Azərbaycanda gələcək üçün böyük potensial vəd edən belə güclü karateçilər yetişir. Təbii ki, yüksək şərait olmadan buna nail olmaq mümkünsüzdür. Klubda həqiqətən də məşq etmək üçün çox gözəl şərait var. Yaponiyanın cüdo üzrə milli komandası dünya çempionatına hazırlığını “Judo Club 2012”nin məşq zalında keçibsə, bu, klubun böyük uğurundan xəbər verir. İnanıram ki, gələcəkdə Küveytin cüdo üzrə milli komandası da belə bir zalda klubun yetirmələri ilə birgə hazırlıq prosesində iştirak edəcəklər. Sonda fürsətdən istifadə edib, “Cudo Klub 2012” İctimai Birliyinin sədri Azər Əsgərova və klubun direktoru Hafis Hacıyevə minnətdarlığımı bildirirəm”.

Məlumat üçün qeyd edək ki, Elnur İbrahim 2002-2007-ci illərdə Azərbaycanın karate üzrə yeniyetmə və gənclərdən ibarət yığma komandasının baş məşqçisi vəzifəsində çalışıb. O, 2007-2008-ci illərdə Türkiyənin Antalya şəhərində “Kamikadze” klubunun, 2009-2014-cü illərdə isə Küveytin karate üzrə milli komandasının baş məşqçisi olub.

Onun hazırladığı tələbələr Avropa və dünya çempionatlarının qalib və mükafatçısı olublar. Küveytdə çalışdığı müddətdə Elnur İbrahimin yetirmələri Asiya çempionu, Asiya Oyunların qalibi, Körfəz çempionatının və digər turnirlərin qalib və mükafatçısı adını qazanıblar.

* * *

Səudiyyə Ərəbistanının karate (WKF) üzrə böyüklərdən ibarət yığma komandası Azərbaycanda təlim-məşq toplanışında iştirak edib. Azərbaycan Milli Karate Federasiyasının (AMKF) təlim-məşq bazasında keçirilən toplanış Özbəkistanda təşkil olunacaq böyüklər arasında Asiya çempionatına hazırlıq xarakteri daşıyıb.

İyulun 8-dən 15-dək davam edən təlim-məşq toplanışına “Judo Club 2012”nin gənc karateçiləri də dəvət alıblar. 8 gün davam edən hazırlıqda klubun karate üzrə məşqçisi Namiq Pirverdiyevin yetirmələrindən Fərid Ağayev, Kənan Babayev, Fidan Dadaşova, Nuri Əliyev və Abbas Dadaşov da təcrübələrini artırmaq üçün iştirak ediblər. Gün ərzində iki dəfə məşq prosesində iştirak edən klubun üzvləri taktiki, texniki və fiziki hazırlıq səviyyələrini yüksəltməyə çalışıblar.

Səudiyyə Ərəbistanının yığma komandası ilə birgə keçirilən təlim-məşq toplanışı “Judo Club 2012”nin karateçiləri üçün böyük təcrübə olub.

Hazırlıq prosesinin sonunda “Judo Club 2012”nin məşqçisi Namiq Pirverdiyev klubun idmançılarını hər zaman diqqətdə saxlayan Azərbaycan Karate-do federasiyaları Assosiasiyasının Prezidenti, millət vəkili Ülvi Quliyevə və Azərbaycan Milli Karate Federasiyasının rəhbərliyinə, federasiya prezidenti Yaşar Bəşirova minnətdarlığını bildirib. O, həmçinin yeniyetmə və gənclərdən ibarət yığma komandanın baş məşqçisi Anar Allahverdiyevə və böyük məşqçi Şahin Xudaverdiyevə klubun idmançılarına göstərdiyi dəstəyə görə təşəkkür edib. Namiq Pirverdiyev belə təlim-məşq toplanışlarının, gənc karateçilər üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

* * *



İtaliyanın Neapol şəhərində Tələbələrin XXX Ümumdünya Yay Universiadası başa çatıb. Universiada çərçivəsində keçirilən cüdo yarışlarında Azərbaycan 6 (5 kişi, 1 qadın) idmançı ilə təmsil olunub. Yığmamız iyulun 7-də komanda yarışlarında mübarizə aparıblar. Kişi cüdoçularımız yarışda Türkmənistan, Almaniya və Fransa yığmalarını məğlub edərək yarımfinala vəsiqə qazanıblar. Bu mərhələdə Rusiya komandasına uduzan Azərbaycan millisi bürünc medal uğrunda görüşdə Braziliya cüdoçularına 3:2 hesabı ilə qalib gəlib. Bürünc medal qazanan idmançılar arasında Azərbaycan yığmasının bayraqdarı, “Judo Club 2012”nin üzvü Murad Fətiyev (81 kq) də var. Klubun idmançısına Napoli Universiadasının bürünc medalı tədim olunub.




Uşaq, yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafının təmin olunması sağlam gələcəyin təməlini qoyur. Bu istiqamətdə yaradılan əlverişli infrastuktur da mühüm rol oynayır. Sevindirici haldır ki, hazırda yeniyetmə və gənclərin peşəkar mütəxəssislərin köməkliyi ilə arzuladıqları idman növlərinin sirlərinə yiyələnmələri üçün ölkəmizdə hər cür şərait var. Paytaxt və bölgələrdə fəaliyyat göstərən Olimpiya idman kompleksləri də idmanın kütləviləşməsində böyük əhəmiyyətə malikdir. Onlardan biri də Hövsan Olimpiya İdman Kompleksidir. Adıçəkilən idman qurğusunun tikintisinə 2007-ci ildə başlanılıb və iki il sonra, yəni 2009-cu ildə istifadəyə verilib. Kompleksin ümumi ərazisi 4,5 hektardır. Üçmərtəbəli binanın ümumi sahəsi 19 min kvadratkilometrdir. Burada üzgüçülük hovuzu, müxtəlif yarışların və təlim-məşq toplanışlarının keçirilməsi üçün iki universal zal, soyunub-geyinmə otaqları və kafe var. Bir müddət əvvəl kompleksin fəaliyyəti ilə yerində tanış olmaq üçün kompleksin direktoru Elşən Əliyevlə görüşdük. Müsahibimiz söhbət zamanı bildirdi ki, Hövsan Olimpiya İdman Kompleksində müxtəlif idman növləri ilə 500-ə yaxın idmançı məşğul olur. "Kompleksimizdə futbol, cüdo, sambo, boks, kikboksinq, karate, bədii gimnastika, qaydasız döyüş və üzgüçülük bölmələri fəaliyyət göstərir. Burada müxtəlif yaş qrupları üzrə həm oğlan, həm də qızlar məşğul olurlar. Təbii ki, təkmübarizlik idman növləri və futbolla daha çox oğlanlar maraqlanır. Qızlar əsasən, gimnastika, üzgüçülük və rəqs bölmələrimizə üz tuturlar. Qeyd edim ki, cüdo və sambo məşqlərini eyni müəllim keçir. O, kifayət qədər təcrübəyə və peşəkarlığa malikdir. Cüdo, boksa və kikboksinqə böyük maraq var. Doğrudur, yay fəsli olduğu üçün idmançıların sayında azalma müşahidə olunur. Bu, həmişə belə olur. Ancaq ümumilikdə bu idman növləri öz kütləviliyi ilə seçilir. Zallarımız, idman avadanlıqlarımız yüksək standartlara cavab verir. Yəni Hövsan Olimpiya İdman Kompleksində gələcəyin titullu idmançılarının yetişməsi üçün hər cür şərait var" , - deyə Elşən müəllim bildirdi.

Keçirilən məşqlərin keyfiyyətini göstərən ən başlıca amil, sözsüz ki, əldə olunan nəticələrdir. Başqa sözlə desək, titullu idmançılar təmsil etdikləri idman kompleksinin güzgüsüdürlər. Elşən müəllimlə söhbət zamanı məlum oldu ki, Hövsan Olimpiya İdman Kompleksinin nüfuzlu yarışlarda böyük uğurlar qazanan yetirmələri kifayət qədərdir. Onlardan biri karate-do üzrə dünya və Avropa çempionu Elton Əliyevdir. "Elton illərdir ki, Hövsan Olimpiya İdman Kompleksində məşq edir. O, ilk vaxtlardan özünün nizam-intizamı, bacarığı ilə seçilib. Həqiqətən, çox əziyyət çəkir və əldə etdiyi uğurlarla sübut edir ki, heç bir zəhmət nəticəsiz qalmır. Qeyd edim ki, Tbilisidə keçirilən beynəlxalq yarışda Elton zədə almasına baxmayaraq, iki müxtəlif çəkidə fəxri kürsünün ən yüksək pilləsində qərarlaşmışdı. Bununla yanaşı, komandamız bir müddət əvvəl Ruminiyada keçirilən beynəlxalq yarışda uğurla iştirak etdi. Fevral ayında karateçilərimiz İranda təşkil edilən daha bir beynəlxalq turnirdə qüvvələrini sınadılar. Elton Əliyev, Həsən Əhmədov, Cansu Əhmədzadə, Natiq Cəfərov və Əli Vəliyev həmin yarışdan qızıl medalla qayıtdılar. Amil Xəlilov isə yalnız finalda məğlub olaraq ikinciliklə kifayətləndi. Kikboksinqçilərimiz bir müddət əvvəl Ağcabədidə keçirilən yarışda uğurla təmsil olunublar. Onlar da parlaq qələbələr əldə ediblər. Bunlar, demək olar, sonuncu mühüm yarışlar idi. Bildiyiniz kimi, yay aylarında, demək olar ki, yarışlar keçirilmir. Sentyabrdan idmançılarımız yenə də respublikada və beynəlxalq arenalarda öz sözlərini deməyə çalışacaqlar", - deyə Elşən müəllim əlavə edib.

# İdman kompleksləri idmanın kütləviliyində mühüm rol oynayır



Elşən müəllimlə söhbətdən sonra Hövsan Olimpiya İdman Kompleksinin boks üzrə məşqçi-müəllimi, respublika dərəcəli idman ustası Vüqar Hüseynovla danışdıq. Vüqar müəllim bildirdi ki, boks kifayət qədər çətin idman növüdür və heç də hamı bu idman növü ilə peşəkar formada məşğul ola bilmir: "Peşəkar boksçu olmaq insandan gərgin zəhmət, böyük iradə tələb edir. Bu səbəbdən də, bəzən yeniyetmə və gənclər boksla məşğul olmaq istəmirlər. Doğrudur, peşəkar boksda zədə, demək olar ki, qaçılmazdır. Ancaq onu da nəzərə almaq lazımdır ki, bir çox idman növləri kimi boks da insanda xarakter formalaşdırır, əzmkarlıq yaradır. Boksla məşğul olanlar mübariz ruhda tərbiyə olunurlar. Mən 2009-cu ildən, yəni Hövsan Olimpiya İdman Kompleksi fəaliyyətə başladığı gündən burada çalışıram. On il ərzində bacarıqlı, titullu idmançıların yetişməsi üçün öz bacarığımı nümayiş etdirmişəm. Məsələn 91 kq çəki dərəcəsində mübarizə aparan Şahin Musayev gənclər arasında Avropa üçüncüsüdür. 2012-ci ildə Avropa çempionatında qüvvəsini sınayan Dərbənd Əliyev də mənim şəxsi yetirməmdir. Belə titullu tələbələrim kifayət qədərdir. Onların hər biri ilə fəxr edirəm."

Gələcək planlar barədə danışan Vüqar müəllim onu da qeyd etdi ki, qarşıda onları çox ciddi sınaqlar gözləyir. "İyul ayında Dağıstanda məşhur idmançı Əli İdrisovun xatirəsinə həsr edilmiş turnir təşkil ediləcək. Bizə də dəvətnamə gəlib. Artıq hazırlıqlara başlamışıq. Ola bilsin ki, digər klubların idmançıları da mənim rəhbərliyim altında Dağıstanda qüvvələrini sınasınlar. Çalışacağıq ki, maksimum nəticə ilə qayıdaq", - deyə respublika dərəcəli idman ustası qeyd etdi.

Vüqar müəllimlə söhbətdən sonra Hövsan Olimpiya İdman Kompleksinin cüdo bölməsinin məşqçisi, cüdo və sambo üzrə idman ustası Fərəc Ələkbərzadə ilə danışdıq. Fərəc müəllim bildirdi ki, idmanla məşğul olmaq yeniyetmə və gəncləri təkcə fiziki cəhətdən yox, həm də mənəvi cəhətdən inkişaf etdirir, onlarda möhkəm xarakter yaradır. "Biz təkcə idmançıların texniki-taktiki biliklərinin inkişaf etməsinə, fiziki güclərinin artmasına çalışmırıq, eyni zamanda onları psixoloji cəhətdən hazırlayırıq. Bu, çox mühümdür. Əfsuslar olsun ki, bəzən psixoloji hazırlıq arxa plana atılır. Əslində isə özünəinam hər şeydən vacibdir. Əgər bədəni zəif olan bir idmançı özündən ağır, güclü rəqibinə qalib gələ bilirsə, bu, məhz düzgün psixoloji hazırlıq hesabınadır. Əslində psixoloji hazırlıqla ayrıca mütəxəssis məşğul olmalıdır. Ancaq bir məşqçi-müəllim kimi çalışıram ki, hazırlıqları kompleks şəkildə keçim. Qazandığımız nəticələr göstərir ki, məşqlərimiz, həqiqətən, keyfiyyətli keçir. İdmançılarımız dünyada, Avropada öz sözlərini deməyi bacarırlar. Məsələn tələbələrimdən Nazir Talıbov Asiya ikincisidir. Əmrah Səlimov Avropa Kubokunun qalibi və qitə yarışının bürünc mükafatçısıdır. Onların hər ikisi dəfələrlə respublika və paytaxt çempionu olublar. Hazırda yeni gənc nəsil yetişir. İndiki tələbələrimdən Aliyə İsmayılzadəyə, Fatimə Əliyevaya böyük ümidlərim var. İnanıram ki, tələbələrim gələcəkdə onlara bəslənilən ümidləri doğruldacaqlar.

Qələbəyə gedən yolda psixoloji hazırlığın mühüm rol oynadığını deyən müsahibimiz fikrini yetirmələrindən birinin - Fatimə Əliyevanın timsalında əsaslandırdı: "Fatimə bir neçə ildir ki, mənim rəhbərliyim altında cüdo ilə məşğul olur. O, keçən il ard-arda bir neçə dəfə zədə aldı. Amma ruhdan düşmədi, mübarizə apardı. Məşqlərini davam elətdirdi və nəticədə Bakı üçüncüsü oldu. Bax, bu əsl xarakterdir. Fikrimcə, Fatimə öz xarakteri, mübarizliyi ilə çoxlarına nümunə olmalıdır".



Fərəc müəllimin tələbələrindən Aliyə İsmayılzadə bizimlə söhbətində bildirdi ki, o, gələcəkdə Zülfiyyə Hüseynova, Kifayət Qasımova kimi tanınmış idmançılardan olmaq istəyir: "Mən beş ildir ki, cüdo ilə məşğulam. İdmana böyük həvəsim var. Düşünürəm ki, həvəs mənə əlavə güc verir. 2017-ci ildə Bakı çempionatının bürünc medalını qazandım. Keçən il Bakı çempionu və Azərbaycan üçüncüsü oldum. Qazandığım qələbələrdə həm məşqçinin, həm də mənim zəhmətim var".

2012-ci ildən cüdo ilə məşğul olan Hüseyn Niftəliyev isə düşünür ki, idman ilk növbədə sağlamlıq üçündür. O, 2016-cı ilə kimi Naxçıvanda bu idman növünün sirlərinə yiyələnməyə başlayıb. Sonradan isə Fərəc müəllimin məşqlərinə yazılıb. Hüseynin fikrincə, idmançıya lazım olan əsas keyfiyyətlərdən biri səbrdir. "Gərək səbrli olasan ki, istədiyin pilləyə qalxa biləsən. Fərqlənməyə o qədər can atmıram. Müəllimimin tapşırıqlarını qüsursuz və cəld yerinə yetirməyə çalışıram. Bilirəm ki, əgər məşqlərim səmərəli olarsa, nəticə də olacaq", - deyə H.Niftəliyev qeyd edib.

Göründüyü kimi, Hövsan Olimpiya İdman Kompleksində idmana böyük həvəs və maraq var. Məşqçi-müəllimlər maksimum dərəcədə keyfiyyətli məşq keçməyə, idmançılar isə göstərilən etimadı doğrultmağa çalışırlar. Bunlar isə böyük qələbələrə, tarixi nailiyyətlərə yol açır.

***Kənan Novruzov***

## Sumqayıt idmançılarının növbəti uğuru

Sumqayıt şəhər Gənclər və idman Baş İdarəsində Polşanın Krakov şəhərində keçirilmiş kiçik yaşlı yeniyetmələr arasında yunan-Roma güləşi üzrə Avropa birinciliyində qalib gəlmiş Sumqayıt idmançıları ilə görüş keçirilib. Baş İdarənin rəisi Elgün Hümbətov milli komandanın tərkibində çıxış edərək qızıl və bürünc medal qazanan Təvəkkül Həziyevi (48 kq) və Fərid Xəlilovu (52 kq) təbrik edərək onlara gələcək yarışlarda daha yüksək nailiyyətlər arzulayıb. Qeyd olunub ki, ölkə rəhbərliyi tərəfindən bu gün respublikamızda bədən tərbiyəsi və idmana çox böyük diqqət və qayğı göstərilir. Bu diqqət və qayğıdan ruhlanan Gənclik şəhərinin idmançıları nəinki respublika səviyyəli yarışlarda, eləcə də Avropa və dünya miqyaslı çempionatlarda qələbələr əldə edirlər. Daha sonra çıxış edən yunan-Roma güləşi üzrə şəhər yığma komandasının baş məşqçisi Əməkdar bədən tərbiyəsi və idman xadimi Qərib Əliyev və idmançıların şəxsi məşqçisi Sədi Quliyev onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və şəhər rəhbərliyinə öz təşəkkürünü bildirib. Sonda E.Hümbətov idmançıları və onların məşqçilərini hədiyyə ilə təltif edib, onlarla xatirə şəkili çəkdirib.

* * *

İyulun 6-7-də Paralimpiya İdman Kompleksində Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr olunmuş 1997-2004-cü illər təvəllüdlü oğlan və qızlar arasında cüdo üzrə şəhər birinciliyi keçrilib. Yarışda 100-dən artıq idmançı qalib adı uğrunda mübarizə aparıb. İki gün davam edən birincilikdə Əliş Yusifov (60 kq), Məhəmməd Rüstəmli (66 kq), Rəşad Cəfərzadə (73 kq), Ruslan Səfixanov (81 kq), Ayxan Qeysərli (90 kq), Atababa Niftəliyev (100 kq) və Toğrul Salmanov (+100 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.



Qızlar arasında isə Gülşən Kərimova (48 kq), Şahnaz Əsgərova (52 kq), Şirin Məmmədova (57 kq), Xədicə Rəşidova (63 kq), Mehriban İmanzadə (78 kq) və Elnarə Rəşidova (+78 kq) birinci yeri tutublar.

Yarışın qalib və mükafatçıları Baş İdarə tərəfindən fəxri fərman, medal və hədiyyələrlə təltif olunublar.

* * *

İyulun 10-da M.Hüseynzadə adına şəhər stadionunun süni örtüklü meydançasında BMT QAK-ın (UNHCR) elan etdiyi "Qaçqınlar üçün bir addım atın" devizi altında davam edən"Qaçqınlarla" kampaniyası çərçivəsində gənclər arasında mini futbol turniri keçirilib.



Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə açan Baş İdarənin rəisi Elgün Hümbətov əsası ümummilli Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətindən, şəhər rəhbərliyinin gənc nəslə göstərdiyi diqqət və qayğıdan danışıb. Qeyd olunub ki, turnirin keçirilməsində əsas məqsəd "Qaçqınlar üçün bir addım atın" devizi altında" başlanan kampaniyaya dəstək olmaq, Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramından irəli gələn vəzifələri icra etmək, gənclərin fiziki inkişafına nail olmaq, sağlamlıqlarının möhkəmləndirmək, asudə vaxtlarının səmərəli təşkili, həmçinin mövcud potensiallarının üzə çıxarılmasıdır.

Gərgin keçən turnirin yekun nəticəsinə əsasən I yerə Sumqayıt Qızıl Aypara Cəmiyyəti, II yerə Qubadlı rayonunun "Həkəri", III yerə isə Sumqayıt "Asan Xidmət" Mərkəzinin komandası layiq görülüb.

Qalib komandalar şəhər Gənclər və İdman Baş İdarəsinin medal və xatirə hədiyyələri ilə təltif olunublar.

* * *

Sumqayıt şəhər 2 nömrəli Uşaq-Gənclər İdman-Şahmat məktəbində keçirilən Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr edilmiş şahmat həll etməsi üzrə kişi və qadınlar arasında şəhər çempionatına yekun vurulub.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda qadınlar arasında Səbinə Rzalı birinci yerə layiq görülüb. Aytac Kərimli ikinci, Jalə Kərimli isə üçüncü yerə sahib çıxıb. Kişilərin mübarizəsində Abusəddin Mollayev, Hüseyn Əhmədzadə və Murad İsmayılov müvafiq olaraq, ilk üç yeri tutublar. Yarışın qalib və mükafatçıları Gənclər və İdman Baş İdarəsinin Fəxri Fərman, medal və hədiyyələri ilə təltif olunublar.

# F U T B O L




## “Qarabağ” azarkeşləri cavab görüşünü gözləyirlər

İyulun 10-da UEFA Çempionlar Liqasının 2019-2020-ci il mövsümünün birinci təsnifat mərhələsi çərçivəsində “Qarabağ” klubu səfərdə Albaniyanın “Partizani” klubu ilə qarşılaşıb.

İlk dəqiqələrdən irəli atılan Ağdam təmsilçisi rəqibin qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yaradıb. Matçın 27-ci dəqiqəsində “Qarabağ” hesabı açmağa yaxın olsa da, Filip Ozoviçin vurduğu zərbə qapı tirinə dəyərək meydanı tərk edib.

Oyunun ikinci hissəsində də tərəflər fərqlənə bilməyib və oyun 0:0 hesabı ilə yekunlaşıb.

Artıq çempionlar Liqasının I təsnifat mərhələsinin cavab oyunu çərçivəsində keçiriləcək “Qarabağ” - “Partizani” (Albaniya) matçının hakimləri açıqlanıb. Görüş Moldovadan olan hakimlər briqadasına tapşırılıb. Matçı Dumitru Muntean idarə edəcək. Ona Vladislav Lifçiu və Andrey Bodean kömək edəcəklər. Qarşılaşmada 4-cü hakim funksiyasını Aleksandru Tean yerinə yetirəcək.

Qeyd edək ki, “Qarabağ” - “Partizani” oyunu iyulun 17-də “Dalğa Arena”da keçiriləcək.

## “Neftçi” Avropa Liqasına qələbə ilə başladı

İyulun 11-də UEFA Avropa Liqasının birinci təsnifat mərhələsi çərçivəsində paytaxtın “Neftçi” komandası səfərdə Moldovanın “Speranta” klubu ilə qarşılaşıb. “Zimbru” stadionunda keçirilən oyun paytaxt komandasının 3:0 hesablı qalibiyyəti ilə başa çatıb.

İlk dəqiqələrdən irəli atılan “ağ-qaralar” rəqibin qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yaradıb. Nəhayət matçın 16-cı dəqiqəsində “Neftçi” hesabı açıb. Rauf Əliyevə qarşı kobud oyuna görə meydan sahiblərinin qapısına penalti zərbəsi təyin olunub. Emin Mahmudov 11 metrlik zərbəni dəqiq yerinə yetirib - 1:0. Bu epizodda Moldova təmsilçisinin heyətində İçaka Tiehi sarı vərəqə ilə cəzalandırılıb. İyirmi doqquzuncu dəqiqədə Dario Frederikonun zərbəsindən sonra top qapı tirinə dəyərək meydana geri qayıdıb. Flaqmanın üstünlüyü ilə keçən oyunun 36-cı dəqiqəsində Dario Frederikonun ötürməsindən sonra Stiven-Jozef Monroz hesab arasındakı fərqi iki topa çatdırıb. İlk hissə “Neftçi”nin 2:0 hesablı üstünlüyü ilə başa çatıb.



İkinci hissənin 50-ci dəqiqəsində Stiven-Jozef Monrozun zərbəsindən sonra top qapıdan aralı keçib. Bundan dörd dəqiqə sonra Emin Mahmudovun uzaq məsafədən zərbəsi qüvvətli alınsa da, dəqiq olmayıb. 76-cı dəqiqədə meydana daxil olan Rəhman Hacıyev künc zərbəsi yaxınlığından gözəl qola imza atıb - 3:0. Beləliklə, komandamız avrokuboklarda debüt edən rəqiblə ilk görüşdə böyük hesablı qələbə qazanıb.

Komandalar arasındakı cavab matçı iyulun 18-də “Bakcell Arena”da olacaq. Görüş saat 21:00-da başlanacaq.

Roberto Bordinin yetirmələri bu mərhələni keçəcəyi təqdirdə Rusiyanın “Arsenal” (Tula) komandası ilə qarşılaşacaq.

UEFA Avropa Liqasında mübarizə aparan digər təmsilçimiz “Səbail” isə birinci təsnifat mərhələsi çərçivəsində ilk oyununda Rumıniyanın “Universitatea” komandası ilə qarşılaşıb.

Komandamız “Bayıl Arena”da keçirilən qarşılaşmada rəqibinə 2:3 hesabı ilə uduzub. Bakılıların heyətində Ağabala Ramazanov 33-cü və 82-ci dəqiqələrdə fərqlənib.

# Transfer xəbərləri

### İspaniya

“Real”ın yeni transferi Eden Hazard “kral klubu”ndakı forma nömrəsini seçib. Belçikalı yarımmüdafiəçi 23 nömrəli formada çıxış edəcək. Hazardın bu nömrəni seçməsi onun qatı basketbol azarkeşi olması ilə əlaqələndirilir. Amerika Milli Basketbol Assosiasiyasında (NBA) vaxtı ilə Maykl Cordon və Lebron Ceyms məhz 23 nömrəli formanı geyiniblər. “Real”da isə bu nömrə altında ingiltərəli yarımmüdafiəçi Devid Bekhem çıxış edib. Qeyd edək ki, bir müddət öncə Hazardın 7 və ya 11 nömrəni seçəcəyi ilə bağlı xəbərlər yayılmışdı.




* * *

“Real”ın heyətində çıxış edən Naço Fernandes komandada qalmağa qərar verib. 29 yaşlı müdafiəçi matçlarda start heyətdə az oynamağına baxmayaraq, Madrid klubundan ayrılmayacaq. Qeyd edək ki, Naço ilə “Sevilya” və “İnter” komandalarının maraqlandığı iddia olunur.

* * *

“Real”ın futbolçusu Xames Rodriges karyerasını Madridin digər klubu “Atletiko”da davam etdirə bilər. “Atletiko” bu transferi həyata keçirməyə yaxındır. Paytaxt klubu yay transfer pəncərəsi bağlanana qədər Xamesi satmağı planlaşdırır.

Qeyd edək ki, 28 yaşlı futbolçunu “Napoli” də transfer etmək istəyirdi. Lakin kolumbiyalı Madriddə qalmağı daha üstün tutub.

* * *

“Vilyareal”ın futbolçusu Denis Çerışevin “Valensiya”ya keçidi rəsmiləşib. Rusiya millisinin üzvü ilə 2022-ci ilin iyun ayına qədər müqavilə imzalanıb. 28 yaşlı yarımmüdafiəçiyə 80 milyon avro təzminat qiyməti qoyulub.

Qeyd edək ki, Madrid “Real”ının yetirməsi olan futbolçu son mövsümü icarə əsasında “Valensiya”da keçirib. O, “yarasalar”ın heyətində 41 oyuna 4 qol vurub, 5 məhsuldar ötürmə edib.

* * *

“Barselona” yeni transferi Antuan Qrizmannla müqavilə bağlayıb. Kataloniya təmsilçisi ilə 5 illik razılaşmaya imza atan fransız hücumçu ictimaiyyətə təqdim olunub. 28 yaşlı futbolçu yeni komandasında 17 nömrəli formanı geyinəcək. Qeyd edək ki, “Barselona” Qrizmannın keçidi üçün “Atletiko”ya 120 milyon təzminat ödəyib.




* * *

“Sevilya” daha bir futbolçunun transferini açıqlayıb. La Liqa təmsilçisi “Portu”nun yarımmüdafiəçisi Oliver Torresi heyətinə cəlb edib. İspaniyalı yarımmüdafiəçi artıq Sevilya gəlib. Bu keçid üçün klub rəhbərliyi “Portu”ya 12 milyon avro ödəyib.

### İngiltərə

“Liverpul” heyətinə daha bir futbolçu cəlb etmək istəyir. Mersisaydlılar “Real”ın yarımmüdafiəçisi Marko Asensioya 75 milyon avroluq transfer təklifi göndərəcək.

İspaniya mətbuatı isə “Real”ın “Liverpul”un hücumçusu Sadio Manenin qarşılığında Asensionu qarşı tərəfə verməyə razı olduğunu yazıb.

Qeyd edək ki, İspaniya millisinin üvzü olan M.Asensio ötən mövsüm “Real”da 43 qarşılaşmaya çıxaraq 6 qol vurub və 7 məhsuldar ötürmə verib.

* * *

“Lill”in futbolçusu Nikolya Pepe karyerası-nı “Arsenal”da davam etdirə bilər. London klubunun 24 yaşlı hücumçu üçün 80 milyon avro ödəməyə hazır olduğu iddia olunur.

Qeyd edək ki, N.Pepe ilə PSJ, “Liverpul”, “Bavariya”, “İnter” və “Mançester Yunayted”in də maraqlandığı iddia olunur. O, ötən mövsüm Fransa çempionatında 38 matçda 22 qol vurub, 18 qolun ötürməsini verib.

* * *

Mövsümün sonunda PSJ-dən ayrılan Dani Alveş karyerasını İngiltərədə davam etdirə bilər.

“Mundo Deportivo” nəşrinin yaydığı xəbərə görə, braziliyalı müdafiəçi ingilis nəhənglərinin maraq dairəsinə düşüb. Premyer Liqanın 3 iddialı klubu - “Mançester Siti”, “Tottenhem” və “Arsenal” 36 yaşlı futbolçunun xidmətində maraqlıdır. Başqa klublardan da təklifləri olan təcrübəli oyunçunun hansı qərarı verəcəyi maraqla gözlənilir. Qeyd edək ki, Alveşin “Barselona”ya qayıtmaq istədiyi də bildirilir.

### Almaniya

“Bavariya” “Ştutqart”ın futbolçusu Benjamin Pavarla müqavilə imzalayıb. 23 yaşlı müdafiəçi 5 illik razılaşmaya imza atıb.




Xatırladaq ki, ötən mövsüm “Ştutqart”ın formasını geyinən fransalı futbolçu ilə yanvar ayından razılıq əldə olunmuşdu.

Qeyd edək ki, 2018-ci ildə Rusiyada keçirilən mundialda Fransa millisi ilə çempion olan gənc futbolçu ötən mövsüm”Ştutqart”ın heyətində 31 oyunda iştirak edib.

* * *

“Yuventus”un hücumçusu Mario Mancukiç bu yay komandasını dəyişə bilər. Almaniyanın “Bild” nəşrinin yaydığı xəbərə görə, xorvatiyalı futbolçu “Bavariya”ya qayıda bilər. Münhenlilər 33 yaşlı forvarda Robert




Levandovskinin əvəzləyicisi kimi baxır. “Yuventus”un yeni baş məşqçisi Mauritsio Sarrinin planlarına daxil olmayan Mancukiç də yenidən Bundesliqada çıxış etməkdə maraqlıdır. Qeyd edək ki, təcrübəli hücumçu Turin klubuna 2015-ci ilin yayında “Atletiko”dan keçmişdi.

### İtaliya

“Roma”nın futbolçusu Kostas Manolasın “Napoli”yə keçidi rəsmiləşib. Klub rəsmi saytı vasitəsi ilə 28 yaşlı müdafiəçini transfer etdiyini açıqlayıb. Qeyd edək ki, K.Manolas




ötən mövsüm A seriyasında 28 matçda 1 qol vurub, 1 qolun ötürməsini verib.

* * *

“Yuventus” yeni transferi Kristian Romeronu icarəyə göndərib.

21 yaşlı müdafiəçi transfer olunduğu “Cenoa” klubuna qayıdıb. O, qarşıdakı mövsümü bu komandada keçirəcək.

Qeyd edək ki, Romero ötən mövsüm “Cenoa”nın heyətində 50 oyuna 2 qol vurub, 2 məhsuldar ötürmə edib.

* * *

“Betis”in qapıçısı Pau Lopesin “Roma”ya keçidi rəsmiləşib. “Canavarlar” ispaniyalı qolkiperlə 5 illik müqavilə bağlayıb. “Roma” 24 yaşlı qapıçıya görə La Liqa təmsilçisinə 23,5 milyon avro təzminat ödəyib.

### Türkiyə

Qalatasaray”ın futbolçusu Fernando Rejesin “Sevilya”ya keçidi rəsmiləşib. İstanbul klubu rəsmi saytı vasitəsi ilə 31 yaşlı yarımmüdafiəçini 4,5 milyon avroya La Liqa təmsilçisinə transfer etdiyini açıqlayıb.

Qeyd edək ki, Fernando 2017-ci ildən “Qalatasaray”da çıxış edib.

* * *

“Fənərbağça”nın yarımmüdafiəçisi Elif Elmas karyerasını “Napoli”də davam etdirəcək. İtaliya klubu bu keçid üçün 20 milyon avro ödəyib. 19 yaşlı futbolçu ilə 5 illik müqavilə imzalanıb. Qeyd edək ki, şimali makedoniyalı futbolçu ötən mövsüm Superliqada 34 oyuna 4 qol vurub.

* * *

“Fənərbağça” növbəti transferini gerçəkləşdirib. İstanbul təmsilçisi Səudiyyə Ərəbistanının “Əl İttihad” klubundan Qari Rodriqesi heyətinə cəlbedib. Kabo-verdeli yarımmüdafiəçi qarşıdakı 2 mövsümü icarə əsasında “sarı-lacivərdli” komandada keçirəcək. “Fənərbağça” 28 yaşlı futbolçunu birdəfəlik transfer etmək hüququna da sahibdir. Təcrübəli oyunçuya görə qarşı tərəfə təzminat ödənilməyib. Qeyd edək ki, Rodriqes 2017-ci ilin qışından 2019-un yanvar ayına kimi “Qalatasaray”da çıxış edib.



Dünya-idmanı

# Ən varlı MMA döyüşçüsü kimdir?




Dünyanın məşhur "Forbes" jurnalının araşdırmasına görə, UFC-nin sabiq dünya çempionu Konor Makqreqorun adı ən yüksək qazanclı 100 idmançı siyahısına daxil edilib.

Makqreqor MMA-dan yeganə döyüşçü kimi bu siyahıda yer alıb. 65-ci pillədə qərarlaşan irlandiyalı idmançının 2018-ci ildə gəliri 47 milyon dollar olub. O, təkcə dağıstanlı döyüşçü Həbib Nurməhəmmədovla döyüşdən 30 milyon dollar qazanıb. 5 milyon dollar isə ona "Reebok"dan gəlib.

Məlumat üçün bildirək ki, "Forbes"in siyahısında birinci yeri 185 milyon dollar qazancla müğənni Teylor Svift tutur. İdmançılar arasında liderlik 127 milyon dollarla Lionel Messidədir. WBA, WBC və İBF versiyaları üzrə dünya çempionu Saul Alvares isə siyahıda 94 milyon dollar gəlirlə 10-cu sırada yer alıb.

# İdman qoroskopu

**Qoç**
Manеələri dəf etməyi xoşlayırsınız. Ona görə də fiziki fəallığınızı məhdudlaşdırmayın. Evinizdə mütləq idman guşəsi olmalıdır. Sizə fəal idman növləri - atletika, futbol, aerobika və s. ilə məşğul olmaq məsləhət görülür.

**Buğa**
Siz inadkarsınız. İncəsənətə biganə deyilsiniz. Gimnastika və sinxron üzgüçülüklə məşğul olsanız, yaxşı olar.

**Əkizlər**
Çox fəal və geniş dünya görüşünə maliksiniz. Hər şeyə maraq göstərirsiniz. Turizm, alpinizm, paraşüt idmanı sizin macəra tələbatınızı təmin edər.

**Xərçəng**
Təhlükəsizliyinizdən çox narahatsınız. Əlbəyaxa döyüş növləri ilə məşğul olmaqla bu nigarançılığa son qoya bilərsiniz.

**Şir**
Şir liderdir. Sizin yaxşı təşkilatçılıq qabiliyyətiniz var. Oyunu düzgün qurmaq bacarığı ilə futbol, voleybol, basketbol və digər komanda idman növlərində gələcək karyeranızı qura bilərsiniz.

**Qız**
Dərindən düşünmək bacarığına maliksiniz. Bu baxımdan, şahmat, dama idman növlərində müvəffəqiyyət qazana bilərsiniz.

**Tərəzi**
Gözəllik vurğunusunuz.Bədii gimnastika, bodibildinqlə məşğul olsanız, həyatınız daha da gözəlləşər.

**Əqrəb**
Zahirən təmkinli və soyuqqanlısınız. Sizdə döyüşçü ruhu var. Bütün idman növləri ilə məşğul ola bilərsiniz.

**Oxatan**
Oxatanlar səs-küyü sevir. İstənilən idman növü sizin üçün faydalıdır. Rəqabət, qalibiyyət hissi sizə zövq verir.

**Oğlaq**
Bütün oğlaqlar praktik və dəqiqdirlər. Onlar rəqabətə nifrət edirlər. Turizmlə məşğul olmaq yerinə düşər.

**Dolça**
Ədalətli və bənzərsizsiniz. İti zehniniz var. Gimnastika , şahmat tam sizə görədir. Çalışın, beyninizi çox yormayın. Əqli əməklə bərabər, fiziki əməklə də məşğul olmağınız məsləhətdir.

**Balıqlar**
Siz çox şeyə qadirsiniz. Lakin müstəqil qərar verməkdə çətinlik çəkirsiniz. Tennis, boks və güləşlə məşğul olmasanız, yaxşı olar.



# "Böyük dəbilqə"də böyük qələbə

"Böyük dəbilqə" seriyasından olan "Uimbldon" tennis turnirinin kişilər arasında qalibi bəlli olub.

Final turnirinin qalibi adını serbiyalı tennisçi Novak Cokoviç qazanıb. O, isveçrəli Roje Federerə 3:2 (7:6, 1:6, 7:6, 4:6, 13:12) hesabı ilə qalib gəlib.

4 saat 57 dəqiqə çəkən final görüşü dünya tennis tarixində ən uzun qarşılaşma olub. Bundan əvvəlki rekord 2008-ci ildəki final görüşündə Roje Federer və Rafael Nadala məxsus idi. Həmin final görüşü 4 saat 48 dəqiqə sürmüşdü.

# Poqbanın transfer qiyməti müəyyənləşdi

"Mançester Yunayted" yarımmüdafiəçisi Pol Poqbanın transfer qiymətini müəyyənləşdirib.

"Qırmızı şeytanlar" adı "Real" və "Yuventus"la hallanan Fransa millisinin üzvünün transferi üçün 180 milyon avro tələb edir.

Premyer Liqa təmsilçisi Poqbanı aşağı qiymətə satmaq fikrində deyil. Məlumata görə, fransalı yarımmüdafiəçi komandada qalmaq istəmir.

"Mançester Yunayted" 26 yaşlı futbolçunu 2016-cı ildə "Yuventus"dan 100 milyon avroya transfer edib. O, "qırmızı şeytanlar"ın heyətində 142 oyuna 31 qol vurub, 29 məhsuldar ötürmə edib.




# 2 qat dünya çempionu dənizdə batan adamı xilas etdi



Sardiniyada istirahətdə olan 37 yaşlı italiyalı üzgüçü Filippo Maqnini əsl qəhrəmanlıq nümayiş etdirib. O, dənizdə batmaq təhlükəsi ilə üzləşən 45 yaşlı kişinin həyatını xilas edib.

"O, çox qorxmuşdu və duzlu su udmuşdu. Mən ona yetişəndə, o danışa bilmirdi. Onu sudan çıxarmaq çətin idi. Ona görə də mən onun başını hava ilə doldurulmuş balışa qoydum. Mən sadəcə, etməli olduğum şeyi etdim", - Maqnini deyib.

Məlumat üçün bildirək ki, italiyalı üzgüçü 2 qat dünya, 3 qat Avropa çempionudur.

# Göz yaşlarını saxlaya bilmədi

Portuqaliyanın "Benfika" klubunun hücumçusu Jonas Qonsalves Oliveyra futbolçu karyerasını başa vurduğunu açıqlayıb.

35 yaşında azarkeşlərlə vidalaşan braziliyalı futbolçu göz yaşlarını saxlaya bilməyib.

Braziliyanın "Quarani" klubunun yetirməsi olan Jonas "Santos", "Qremio" və "Valensiya" klublarında da çıxış edib. O, "Benfika"da 2014-2019-cu illərdə 183 oyunda 137 qol vurub. Futbolçu Braziliya millisində 12 oyun keçirib və 3 dəfə rəqib qapıçılarını məyus edib.

**olimpnews.az - sizin saytınız**




# Şərhçi kimi çalışacaq

Futbolçu karyerasını başa vuran Hollandiya yığmasının sabiq üzvü Robin van Persi özünə yeni iş yeri tapıb.



Ən son olaraq "Feyenoord"un formasını geyinən sabiq hücumçu, bundan sonra şərhçi kimi fəaliyyət göstərəcək.

İngiltərənin "BT Sport" kanalında işləyəcək van Persi, matçlardan əvvəl və sonra öz fikirlərini bölüşəcək.

# Mürrey yenidən ata olacaq

Dünyanın məşhur raket ustası Endi Mürrey üçüncü övladının yolunu gözləyir.

Qeyd edək ki, sabiq dünya çempionunun 2 qız övladı var. Övladlarından Sofiya üç, Edi isə 1,5 yaşındadır.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19